**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SOSİAL SIĞORTA GƏLİRLƏRİNİN UÇOTU VƏ AUDİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5303.01 - Mühasibat uçotu |
| Elm sahəsi: | 53 – İqtisad elmləri |
| İddiaçı: | **Novruz Həsən oğlu Hüseynov** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI - 2024**

Dissertasiya işi – Azərbaycan Dövlət İqtisad Universitetinin “Mühasibat uçotu və audit” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**İbad Musa oğlu Abbasov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Fazil Şöhlət oğlu Hacıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Vüqar Muxtar oğlu Mehdiyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Nüşabə Astan qızı Qədimli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________________ imza
əməkdar elm xadimu, iqtisad elmləri doktoru, professor,
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ________________
iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ________________ imza
iqtisad elmlər doktoru, professor
**Sifariz Mirzəxan oğlu Səbzəliyev**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir dövlətin sosial-iqtisadi inkişafını xarakterizə edən əsas göstəricilərdən biri sosial müdafiə tədbirləri ilə əhalinin əhatə olunma səviyyəsidir. Sosial müdafiə tədbirləri dedikdə, obyektiv və ya subyektiv səbəblərdən gəliri az olan yaxud olmayan vətəndaşların sosial müdafiə tədbirləri ilə əhatə olunmasının ön plana çəkilməsi başa düşülür. Bu proseslər isə ümumilikdə milli gəlirin təkrar bölgüsü zamanı az təminatlı əhali kateqoriyasının nəzərə alınması ilə həyata keçirilir. Sadalanan tədbirlərin reallaşdırılmasında sosial sığorta gəlirləri mühüm yer tutur.

Sosial sığorta sosial müdafiənin təşkilində mühüm rol oynayaraq ümumilikdə iqtisadi, sosial və investisiya xarakterli funksiyaları həyata keçirir. Cəmiyyətdə keyfiyyət dəyişikliklərinin baş verməsi və sosial-iqtisadi həyatın inkişafı əhalinin sosial müdafiəsi tədbirlərində sosial sığortanın funksiyalarını, yerini və rolunu əhəmiyyətli şəkildə artırır. Bu çoxsaylı amillərlə, ilk növbədə qarşılanan sosial risklərin siyahısının genişlənməsi ilə bağlıdır. Əsas konstitusion zəminlə yanaşı sosial sığortanın inkişafının digər sosial-iqtisadi səbəbləri də vardır. İlk növbədə sığortaçının, yəni Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət səmərəliliyinin yüksəldilməsi, onun fiskal deyil, sosial funksiyasının gücləndirilməsidir. Belə ki, sığortaçı sosial sığortanın maliyyə mexanizminin mühüm həlqəsidir və sosial müdafiə sisteminin səmərəliliyi onun fəaliyyətindən asılıdır. Digər səbəb risklərin idarə edilməsi nəzəriyyəsinin və təcrübəsinin yeni istiqaməti kimi sosial risk menecmentinin inkişafıdır. Sosial sığorta risklərin ötürülməsi vasitəsidir. Nəhayət, vergi sisteminin optimal vəziyyətə gətirilməsi və sosial verginin dəyişməsinin ölkənin demoqrafik və iqtisadi vəziyyəti ilə korrelyasiyasıdır.

Müasir mərhələdə DSMF-nun öz fəaliyyətini səmərəli təşkil etməsində dövlət büdcəsindən transfertlərin mühüm rolu vardır. Belə ki, büdcədən olan transfertlərin əsas səbəbi sığorta ödəmələri üzrə olan borclardır ki, bu da dövlət büdcəsinin yükünü artırır. Maliyyə resurslarının məhdudluğu şəraitində Fondun qarşısında duran vəzifə dövlət büdcəsindən ayırmaların həcmini azaltmaqla ona tapşırılmış

funksiyaları səmərəli icra etməkdir. Səmərəli istifadənin təşkilində nəzarət prosesi mühüm rol oynayır. Deməli, vəsaitlər üzərində səmərəli maliyyə nəzarəti sisteminin formalaşdırılması vacibdir. Bu istiqamətdə nəzarətedici orqan maliyyənin qanuni və düzgün idarəedilməsi, maliyyə hesabatlarının dürüst tərtib edilməsi ilə yanaşı, idarəetmədə səmərəliliyin, vəsaitlərdən istifadə də qənaətliliyin və təyinatlılığın auditini də təşkil etməlidir. Beləliklə də, səmərəliliyin auditi daha geniş konteksdən çıxış edərək bütövlükdə idarəetmənin yoxlanılması kimi xarakterizə olunur.

Dövlət vəsaitlərinin məqsədəuyğun və səmərəli istifadəsi ölkədə müasir tələblərə cavab verən sosial iqtisadi inkişafa zəmin yaratdığı kimi, eyni zamanda əhalinin də həyat səviyyəsinin yüksəldilməsinə, o cümlədən digər sahələrində qarşılıqlı inkişafına şərait yaradar. Bu isə öz növbəsində ölkənin əsas strateji hədəflərinə çatmasında və dünya ölkələri arasında mövqeyinin möhkəmləndirməsində əsas şərtdir.

Dövlət idarəetmə sektorunda mühasibat uçotunun mövcud sistemi onun fəaliyyətinin maliyyə nəticələri, aktivlərin hərəkəti, yerinə yetirməli olduğu öhdəliklərin konkret çevrəsi və vəsaitlərdən istifadənin səmərəliliyi haqqında dolğun məlumat əldə etməyə imkan vermir. Bu isə öz növbəsində operativ idarəetmə qərarının qəbul edilməsini çətinləşdirir və vahid inteqrasiya edilmiş struktur çərçivəsində tələblərin müəyyən edilməsi mühasibat uçotunun təkmilləşdirilməsini zəruri edir. Əhatəli və dəqiq uçot informasiyası əldə edilməsinə aparılan uçotda və tərtib edilən hesabatlarda beynəlxalq standartların norma və prinsiplərini tətbiq etməklə nail olmaq olar. Beləliklə, dissertasiya işinin mövzusunun aktuallığını maliyyə monitorinqi və nəzarətinin inkişafı vasitəsi ilə sosial sığorta üzrə maliyyə resurslarının idarəedilməsi səmərəliliyinin yüksəldilməsi, dövlət idarəetmə sektorunda mühasibat uçotu və auditin təşkilinin beynəlxalq standartlara uyğunlaşdırılması, büdcədənkənar dövlət idarəetmə orqanlarının müasir uçot paradiqması kimi idarəetmə uçotunun təşkili, inteqrasiya edilmiş korporativ hesabatlılığın tətbiqi, bu sahədə gedən proseslərə ictimai nəzarətin rolunun artırılmasının təmin edilməsini, DSMF-nun maliyyə dayanıqlığının inkişaf etdirilməsi üçün yeni mənbələrin aşkar edilməsini, sadalanan istiqamətlər üzrə qanunvericilik bazasının

təkmilləşdirilməsi sahəsində layihələrin və tövsiyyələrin hazırlanmasının və s. zəruriliyini şərtləndirir.

Sosial sığorta sisteminin inkişafı, onun iqtisadi və maliyyə sabitliyi, büdcə idarələrində uçot və hesabatın, maliyyə nəzarətinin, risk yönümlü daxili auditin təşkilinin nəzəri-metodoloji və praktiki tərəflərinə aid yerli və xarici iqtisadçı alimlər çoxlu sayda tədqiqat əsərləri həsr etmişdirlər.

Ölkənin iqtisadçı alimlərindən-Abbasov İ.M., Səbzəliyev S.M., Yaqubov S.M., Müslümov S.Y., Novruzov V.T., Namazova C.B., Kazımov R.N., Abbasov Q.Ə., Xankişiyev B.B., Xudiyev N.N., Məhərrəmov A.T., Novruzov N.A., Bağırov D.A. və s., xarici iqtisadçı alimlərdən – Abaltusov A.A., Averin A.N., Alpatova D.Y., Antropov V.V., Bıçkov D.Q., Kolos E.A., Roik V.D., Silçenko S.A., Arens A.A., Karlos V.M., Merrien F.X. və s. alimlərin qeyd edilən sahələr üzrə problemlərin qabardılmasında, həlli istiqamətlərinin göstərilməsində və həll edilməsində böyük əməyi olmuşdur.

Lakin bununla yanaşı ölkədə sürətli sosial-iqtisadi inkişafın getdiyi vaxtda sosial sığorta sisteminin təkmilləşdirilməsi, onun maliyyə resurslarının idaredilməsi səmərəliliyinin yüksəldilməsi, beynəlxalq standartlara uyğun dövlət idarəetmə sektorunda uçot və hesabatın, maliyyə nəzarətinin, risk yönümlü daxili auditin təşkili sahəsində həll edilməmiş çoxlu problemlər qalmaqdadır. Beləliklə, qeyd edilən məsələlərin aktuallığı və kifayət qədər tədqiq edilməməsi tədqiqat işinin istiqmətlərini, xüsusilə onun məqsəd və vəzifələrini, obyekt və predmetini müəyyənləşdirməyə imkan vermişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Büdcədənkənar dövlət fondlarında nəzarətin, uçotun, hesabatın və bütövlükdə idarəetmə mexanizminin beynəlxalq standartlara uyğun formalaşmasının və resurslardan məqsədyönlü istifadənin təkmilləşdirilməsi istiqamətləri tədqiqatın məqsədini təşkil edir. Həmin məqsədlərə müvafiq olaraq tədqiqat qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

-sosial sığorta institutunun formalaşdırılmasının nəzəri və instutitsional əsaslarının tədqiq edilməsi;

- beynəlxalq təcrübənin öyrənilməsi əsasında sosial müdafiə sisteminin müasir modellərinin xüsusiyyətlərinin ümumiləşdirilməsi;

- sosial sığorta gəlirlərinin uçotunun və auditinin təşkilinin metodoloji aspektlərinin sistemləşdirilməsi;

- DSMF-nun maliyyə vəsaitlərinin uçotunun müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi;

- dövlət idarəetmə sektorunda uçot və hesabatın təşkili xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

- sosial sığorta sisteminin səmərəli təşkilində maliyyə nəzarətinin və daxili auditin təşkili istiqamətlərinin ümumiləşdirilməsi;

- əhalinin sosial müdafiəsinin təşkilində vəsaitlərdən səmərəli istifadənin istiqamətlərinin müəyyənləşdirilməsi;

- DSMF-da müasir və beynəlxalq tələblərə cavab verən uçot sisteminin təşkilinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi;

- dövlət idarəetmə sektorunda maliyyə nəzarəti və daxili auditin təşkilinin səmərəliliyinin qiymətləndirilməsi;

**Tədqiqatın obyekti və predmeti.** Büdcəsinin əsas hissəsi sosial sığorta gəlirləri əsasında formalaşan Dövlət Sosial Müdafiə Fondu Publik hüquqi şəxsin gəlir və xərclərinin idarəedilməsi, onların uçotu və auditi tədqiqatın obyektini təşkil edir.

Fondun büdcəsinin idarəedilməsi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, beynəlxalq standartlara uyğun uçot və auditin formalaşdırılması prosesində yaranan iqtisadi-təşkilati, nəzəri-metodoloji və praktiki problemlər, uçot-analitik iqtisadi münasibətlərin məcmusu tədqiqatın predmetidir.

**Tədqiqatın metodları.** Sosial müdafiə sahəsində sosial sığortanın formalaşması, maliyyə mənbələrinin araşdırılması, inkişafı, dövlətin maliyyə resurslarının səmərəli idarəedilməsi, büdcədənkənar dövlət idaretmə orqanlarında uçotun, hesabatın, maliyyə nəzarətinin, risk yönümlü auditin təşkili, onların beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində Azərbaycanın və xarici ölkələrin alimlərinin fundamental və tətbiqi elmi əsərləri, həmçinin Azərbaycanın bu sahədəki normativ-hüquq aktlarının ümumiləşdirilməsinə üstünlük verilmişdir.

Tədqiqat prosesində əldə edilmiş nəticələri və müəyyənləşdirilmiş tövsiyyələri əsaslandırmaq üçün empirik məlumatların işlənməsinin müxtəlif statistik metodlarından, dinamika sıralarının təhlili, induksiya və deduksiya, nisbi və orta kəmiyyətlər, məntiqi ümumiləşdirmə, sistemli, amilli və müqayisəli təhlil və s. metodlardan

istifadə edilmişdir. Tədqiqatın informasiya mənbələrini Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Vergi Xidmətinin, Hesablama Palatasının və DSMF-nun statistik məlumatları, sosial müdafiə sistemini tənzimləyən normativ hüquqi aktlar, uçot, hesabat və auditin təşkili və həyata keçirilməsi üzrə təlimatlar, beynəlxalq standartlar, internet şəbəkəsinin informasiya resursları və s. təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- sosial müdafiənin təşkilində sosial risklərin səmərəli idarəedilməsinin iqtisadi və sosial məzmunu araşdırılmışdır;
- sosial sığorta institunun əhalinin sosial müdafiəsinin təşkilindəki yeri və rolu araşdırılmışdır;
- dünyada geniş yayılan sosial müdafiənin iqtisadi modelləri araşdırılmış və Azərbaycanın sosial müdafiə sistemində bu modellərin göstəriciləri müəyyənləşdirilmişdir;
- sosial sığorta sahəsində uçot və auditin metodoloji aspektləri araşdırılmış və mövcud problemlərin həlli üçün bir sıra optimal təkliflər müəyyənləşdirilmişdir;
- sosial sığorta gəlirlərinin və xərclərinin uçotunun mövcud vəziyyəti təhlil edilmiş və onun təşkilinin səmərəliliyi qiymətləndirilmişdir;
- DSMF-nun gəlir və xərclərin mühasibat uçotunda əks etdirilməsinin yeni metodikası işlənib hazırlanmışdır;
- Büdcədənkənar fond olaraq DSMF-də hesabatlılığa dair müvafiq təkliflər işlənib hazırlanmışdır;
- sosial müdafiə sahəsində nəzarət prosesinin operativ təşkil edilməsinə yeni yanaşma olan elektron auditə keçidin vacibliyini şərtləndirən amillər tədqiq edilmişdir;
- Sosial müdafiə sahəsində yeni yanaşma olan Özəl pensiya fondlarının yaradılması və inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır;
- Büdcədənkənar dövlət fondlarında uçot və hesabatın təkmilləşdirilməsi prosesi kimi hesablar planı ilə büdcə təsnifatı kodlarının uyğunlaşdırılmasının zəruriliyi tədqiq edilmişdir;
- Dövlət idarəetmə sektorunda maliyyə nəzarəti və daxili auditin səmərəli təşkilinə zəruri tələblər müəyyənləşdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** sosial sığorta orqanlarında gəlir və xərclərin uçotunun müasir beynəlxalq standartlara uyğun aparılması metodikasının işlənib hazırlanmasından və buna müvafiq olaraq uçot

və hesabatın təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Həmçinin tədqiqat işinin elmi yeniliyinə aşağıdakılar da aid edilir:

- sosial sığortanın zəruriliyinin sosial risk baxımından araşdırılması və təhlil edilməsi;
- büdcədənkənar dövlət fondlarında uçot və hesabatın təşkilinin xüsusiyyətlərinin araşdırılaraq, büdcə uçotu və hesabatları vasitəsilə formalaşan informasiyalara tələblərin dəqiqləşdirilməsi;
- beynəlxalq təcrübəyə əsaslanan risk yönümlü daxili auditin təşkili metodikasının dəqiqləşdirilməsi;
- DSMF-nun büdcəsinin cari vəziyyətinin təhlil edilməsi əsasında onun inkişaf meyillərinin müəyyən edilməsi və ona mane olan problemlərin aşkar edilməsi;
- sosial müdafiə tədbirlərinə yönəldilən büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi;
- sosial sığortada mövcud olan regional qeyri-bərabərliyi aşkar etməyə imkan verən inteqral modelin üstünlüklərinin əsaslandırılması;
- DSMF-nun işinin səmərəli və operativ təşkilində nəzarətin yeni forması kimi elektron auditin tətbiqinin zəruriliyinin qeyd edilməsi;
- büdcədənkənar dövlət idarəetmə orqanlarında uçot və hesabatın beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi.

Həmçinin, aşağıda göstərilən təkliflərin irəli sürülməsi də elmi yeniliyin tərkib hissəsi kimi təqdim edilir:

- özəl pensiya fondlarının yaradılması və fəaliyyətinin təmin edilməsi səmərəli sosial müdafiə tədbirlərindən biri kimi;
- dövlət idarəetmə sektorunda büdcə proseslərinin təkmilləşdirilməsinin mühüm amili kimi nəticə və starteji yönümlü büdcələşdirmə modelinin tətbiq edilməsi;
- sosial sığortanın regional qeyri-bərabərliyini aşkar etməyə imkan verən inteqral modelin təcrübədə tətbiq edilməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrinin dövlət maliyyəsinin və sosial sığorta sisteminin idarəedilməsi haqqında elmi biliklərin inkişaf etdirilməsində, büdcədənkənar dövlət fondunun idaretmə orqanlarında uçot və hesabatın, maliyyə nəzarətini təşkil edərkən istifadə edilən metodiki yanaşmaların

işlənib hazırlanmasında mühüm nəzəri-metodoloji əhəmiyyəti ola bilər. Tədqiqat prosesində elmi cəhətdən əsaslandırılmış elmi-nəzəri müddəalardan uçot, hesabat və nəzarət işlərinin səmərəliliyinin yüksəldilməsində istifadə edilə bilər.

Tədqiqat işinin nəzəri müddəaları və praktiki nəticələri "Audit", "Mühasibat uçotu və təhlil" fənlərinin tədrisində istifadə edilə bilər.

Dissertasiya işinin nəticələrinin dövlətin sosial siyasətinin əsas parametrlərinin əsaslandırılmasında, DSMF-nun inkişaf xüsusiyyətlərinin aşkar edilməsində, büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsində, büdcədənkənar dövlət idaretmə orqanlarında uçot informasiyasının şəffaflığının artırılmasında, onların analitik-informasiya təminatı sisteminin təkmilləşdirilməsində, uçot, hesabat, maliyyə nəzarəti və audit işlərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətlərinin əsaslandırılmasında mühüm əhəmiyyəti ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin nəticələri Dövlət Vergi Xidmətinin, DOST Mərkəzlərinin, DSMF-nun mərkəzi aparatının, Mərkəzi və regional ərazi filiallarının praktiki fəaliyyətində tətbiq və istifadə edilə bilər.

Tədqiqat işinin nəticələri və elmi yenilikləri Bakı Biznes Universitetində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində və digər qurumlarda keçirilmiş beynəlxalq elmi praktiki konfransların materiallarında o cümlədən yerli və xarici jurnallarda dərc edilmiş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**- Dissertasiya işinin strukturu giriş (13454 işarə), üç fəsil (I fəsil-59172 işarə, II fəsil-79616 işarə, III fəsil-76285 işarə), nəticə (80059 işarə) və 113 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə 14 cədvəl, 10 sxem-şəkil və 2 qrafik verilmişdir. Tədqiqat işinin ümumi həcmi 236717 işarədən ibarətdir.

# DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, obyekt və predmeti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar, metodları, elmi yeniliklər və s. məsələlər öz əksini tapmışdır.

Tədqiqat işinin **"Sosial sığorta gəlirlərinin uçotu və auditinin təşkilinin nəzəri və metodoloji əsasları"** adlanan birinci fəslində sosial sığorta institutunun formalaşdırılmasının nəzəri və institusional əsasları, sosial müdafiə sisteminin modelləri və bu sahədə formalaşan beynəlxalq təcrübə və sosial sığorta gəlirlərinin uçotu və auditinin təşkilinin metodoloji aspektləri təhlil edilmişdir.

Sosial sığorta bütün ölkələrdə sosial müdafiə tədbirlərinin ayrılmaz elementidir. Bunun vasitəsi ilə ölkələr xoşagəlməz hallarla qarşılaşan vətəndaşlarına vacib maddi və mənəvi köməklik göstərilməsini həyata keçirir. Xüsusi ilə bu fondların əhəmiyyəti 2020-ci ildə dünyanı bürüyən COVİD-19 pandemiyasında daha aydın göründü. Belə ki, pandemiya səbəbindən ölkələr arasında əlaqələrin kəsildiyi, sərhədlərin qapandığı o cümlədən ölkələrin ərazisində ciddi karantin rejimi qaydalarının tətbiq edilməsi dövlətin və əhalinin gəlirlərinin azalmasına səbəb oldu. Məhz bu dönəmdə əhalinin itirilmiş gəlirlərinin konpensasiyasında, sosial müdafiə tədbirlərinin səmərəli təşkilində dövlət büdcəsi ilə yanaşı sosial sığorta gəlirləri də mühüm rol oynadı[1]. Ümumiyyətlə sosial sığorta mexanizminin iş prinsipininin əsasını sosial risklərin baş verməsinin yüksək olduğu şəraitdə vətəndaşlara şüurlu şəkildə dövlətin qayğı göstərilməsi təşkil edir[2].

Sosial risk baxımından cəmiyyətin həssas olmasını və risklərin də müxtəlif xarakterli olmasını nəzərə alaraq risklərdən müdafiənin müxtəlif formullarının işlənməsi və tətbiqi zərurəti meydana gəlir.

---

[1] Агеева, Е.В. Особенности адаптации социальной защиты населения к кризисным условиям //- Москва: Креативная экономика, – 2021. Том 15, №12, -с. 4485-4498.

[2] Алпатова, Д.Ю. Фонд социального страхования РФ: особенности и перспективы // Молодой учёный, - 2014. №8.2, (67.2), - с.4-5.

Sosial riskə insan iradəsindən asılı olmayaraq qazancın itirilməsi, xəstələnmə, əmək zədəsi almaq halları nəticəsində əlavə xərclərin yaranması xarakterikdir ki, bu da insanların maliyyə vəziyyətini pisləşdirə bilər. Bu cür risklərdən təkbaşına müdafiə mümkün deyildir ki, məhz bu səbəbdən sosial risk qrupuna daxil olan hadisələr ictimai xarakterlidir. Onun ictimai xarakterli olması, onunla izah olunur ki, əmək haqqının itirilməsi ayrı-ayrı şəxslərin timsalında fərdi xarakterli olsa da, ümumilikdə bu iqtisadiyyat üçün mənfi hal hesab olunur. Fikrimizcə sosial risk kateqoriyasına daxil olan halları tam aradan qaldırmaq mümkün deyildir. Lakin sosial riskin mahiyyətini araşdırdıqda onun nəticələrinin təsir dairəsinin azaldılması üçün optimal iş şəraitinin yaradılması, yüksək əməkhaqqının verilməsi, işçinin asudə vaxtının səmərəli keçirməsinin təşkili, müəyyən olunan normadan artıq işləmənin qarşısının alınması, tibbi sığorta mexanizminin işlək vəziyyətə gətirilməsi ilə işçilərin mütəmadi həkim müayinələrindən keçirilməsinin təmin edilməsi və digər bu kimi zəruri tədbirlərin görülməsinin vacib olduğunu qeyd edə bilərik.

Sosial sığorta institutlarının vacibliyini şərtləndirən institusional amillər sırasında aşağıdakıları göstərmək olar:

- sığortaolunanların itirilmiş gəlirlərinin kompensasiya edilməsinin əmək haqqı ilə bağlı olması;
- sosial sığorta sahəsində dövlətin nəzarətinin güclü olması və vəsaitlərin ödənilməsinin məcburiliyi;
- sosial sığorta hadisəsi baş verdikdə heç bir əlavə şərt irəli sürülmədən itirilmiş gəlirin kompensasiya edilməsi;
- sığorta ödəmələri ilə yalnız sığortaolunanların təmin edilməsi;
- sığorta ödəmələrində sığortaolunanların himayəsində olan azyaşlıların da nəzərə alınması;
- ödənilən pensiyaların həcminin sığorta olunanın fərdi hesabında toplanan sığorta ödəmələrindən asılı olması;
- sosial sığorta gəlirlərinin həm sığortaedənlərin əməkhaqqı fondundan, həm də sığortaolunanların gəlirlərindən ödədikləri məcburi ayırmalar hesabına formalaşması;
- bütün sosial sığorta hadisələrinə vahid yanaşma metodunun təmin edilməsi;

Beləliklə sosial sığorta sahəsinin inkişafı əhalinin sosial müdafiəsində olduqca mühüm rola malikdir.

Əhalinin sosial müdafiəsi olduqca geniş və çoxşaxəli anlayışdır. Bütün ölkələrdə bu sahəyə xüsusi diqqət ayrılmasının başqa bir səbəbi də demək olar ki, ölkə əhalisinin bütün üzvlərinin bu sahədə iştirakçı olmasıdır. Bu mənada dünyanın bir çox dövlətlərində sosial müdafiə sitemi bir-birindən köklü şəkildə fərqlənir və modellər müxtəlifliyi yaranır. Ümumiyyətlə sosial müdafiə sisteminə təkcə sosial deyil həm də iqtisadi kateqoriya kimi baxılmalıdır. Belə ki, sosial müdafiə sisteminə iqtisadi kateqoriya kimi yanaşılmasının əsas səbəbi əhalinin mövcud sosial problemlərini iqtisadi baxımdan həll etməsidir. Avropa birliyi ölkələrində sosial müdafiənin dörd əsas iqtisadi modeli tətbiq edilir: kontinental yaxud Bismark, anqlosakson yaxud Beveric, skandinaviya və cənubi avropa modelləri.

Bu modellərin hər birinin özünə məxsus mənfi və müsbət tərəfləri vardır. Lakin, onlardan hansının tətbiq edilməsi ölkənin iqtisadi göstəricilərindən asılı olaraq dəyişir. Belə ki, iqtisadi cəhətdən güclü olan dövlətlər əhalinin qayğısına daha çox qalacaqdır nəyin ki, iqtisadiyyatı zəif olan ölkələr. Ümumiyyətlə, ölkələrin sadalanan modellərdən hər hansı birini və yaxud yeni bir formanı tətbiq etmək sərbəstliyi vardır. Yəni hər hansı bir ölkənin sosial müdafiə siyasətində bu modellərdən hər hansı birinin tətbiq edilməsinə məcbur etmək olmaz. Bu sahədə hansı formanın və ya hansı ölkənin təcrübəsinin tətbiqindən asılı olmayaraq əsas məsələ sosial ədalətin gözlənilməsi və hər kəs üçün vahid yanaşmanın tətbiq olunmasıdır.

Azərbaycanda sosial müdafiə sahəsində aparılan siyasətin konkret hansı modelə aid olduğunu demək çətindir. Belə ki, ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində gedən sosial iqtisadi proseslərin elementlərinin müqayisəli təhlilini və qiymətləndirilməsini apararkən həm kontinental, həm skandinaviya, həm anqlosakson, həm də cənubi avropa modellərini elementləri görünür. Amma ümumilikdə sosial müdafiə sisteminin əsasən ölkənin milli xüsusiyyətlərinə uyğun Azərbaycan modelinin formalaşmağının şahidi oluruq.

Sosial müdafiə tədbirlərinin həyata keçirilməsində, sosial sığorta gəlirləri mühüm rol oynayır. Sosial sığorta gəlirlərinin uçotu-

nun və auditinin metodoloji aspektlərinin təhlil edilməsi vacibdir və bunun üçün həll edilməsi zəruri məsələlər aşağıdakılardır:

-sosial sığorta gəlirlərinin formalaşması mənbələri üzrə uçotunu apararkən qanunvericilikdə nəzərdə tutulmuş formada gəlirlərin istiqamətləri və uyğun olaraq da həmin istiqamətlərdən formalaşan vəsaitlərin həcminin göstərilməsinin təmin edilməsi;

-cari ilin mdss haqlarından daxil olmaların tərkibində əvvəlki illər üzrə ödənilən mdss haqları məbləğinin ayrıca göstərilməsi;

-sosial sığorta ödəmələrinə cəlb edilən hüquqi və fiziki şəxslərin iqtisadi fəaliyyət növünün düzgün seçilməsinə nəzarətin təmin edilməsi;

-ödənilmiş məcburi sosial sığorta haqlarının vətəndaşların fərdi şəxsi hesablarında düzgün yerləşdirilməsinin təmin edilməsinə nəzarətin gücləndirilməsi.

Dissertasiyanın ikinci fəsli **“Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin uçotu və auditinin müasir vəziyyətinin təhlili”** adlanır. Bu fəsildə Fondun gəlir və xərclərinin uçotunun və auditinin cari vəziyyətinin təhlili və qiymətləndirilməsi, uçot və hesabatın təşkili xüsusiyyətləri və yeni hesabatlılığa keçid, sosial sığorta sistemində dövlət maliyyə nəzarətinin və daxili auditin təşkili xüsusiyyətləri araşdırılmışdır.

DSMF-nin gəlirləri məcburi dövlət sosial sığorta haqları, sair mənbələr və dövlət büdcəsindən ayırmalardan təşkil olunur[3].

Cədvəl 1-də mdss haqlarından daxilolmaların artmasının əsas səbəbi, bu sahədə idarəetmənin Vergi xidmətinə həvalə edilməsi olmuşdur. Lakin, bu sahədə hələ də müəyyən çatışmazlıqlar var. Belə ki, DSMF-nin növbəti il üçün proqnozlaşdırılan büdcəsində orta aylıq əmək haqqının artım tempi ilə mdss haqlarından daxilolmaların göstəricilərinin tam uyğunlaşdırılmaması, mdss haqlarının toplanması istiqamətində DSMF və Dövlət Vergi Xidməti arasında əlaqənin və qarşılıqlı fəaliyyətin tam qurulmamasını və s. göstərmək olar.

[3] Гареева, И.А. Социальное страхование в современной России / И.А.Гареева, М.В.Дорохина // Ученые заметки ТОГУ, -Хабаровск:- 2017, Том 8, № 1, с. 310-313.

**Cədvəl 1**

**2017-2022-ci illərdə DSMF-nun gəlir və xərcləri, mln. manat**

| Göstəricilər | 2017-ci il | 2018 -ci il | 2019-cu il | 2020-ci il | 2021-ci il | 2022-ci il |
|---|---|---|---|---|---|---|
| Gəlirlər | 3421,0 | 3752.2 | 4126.5 | 4748.3 | 5177.6 | 5726.8 |
| MDSSH | 2085.7 | 2327.1 | 2921.6 | 3553.1 | 3847.2 | 4583.4 |
| Sair daxilolmalar | 32.3 | 87.8 | 22.2 | 17.3 | 23.0 | 11.4 |
| Xərclər | 3486,8 | 3757.7 | 3951.2 | 4711.1 | 4842.6 | 5251.6 |
| Dövlət büdcəsin -dən ayırmalar (transfert) | 1303.0 | 1337,3 | 1182.7 | 1177.9 | 1307.4 | 1132.0 |

***Mənbə:** cədvəl https://sai.gov.az/filter?type=rey saytından götürülmüş məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır*

1 saylı cədvəldə dövlət büdcəsindən Fonda ayırmaların həcmində azalmalar müşahidə olunur. Bunun əsas səbəblərindən mdssh-dan daxil olmaların artması, əsassız ödənişlərin aşkar edilərək dayandırılması və bərpa etdirilməsi və s. tədbirlərdir. Lakin bu azalmanın mənfi tərəfi Fondun büdcəsi və dövlət büdcəsində ayırmalar hesabına maliyyələşən öhdəliklərin çərçivəsinin tam müəyyən olunmamasıdır.

Sair gəlirlər bölməsində Fondun büdcəsi haqqında qanunvericilikdə yalnız sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmaların uçotu aparılır. Lakin qanunvericilikdə sair gəlirlərin formalaşma mənbələri kimi maliyyə sanksiyalarından, penyalardan, eləcə də artıq ödənilmiş pensiya və müavinət məbləğlərinin, o cümlədən Fondun özü tərəfindən aşkar edilmiş artıq ödəmələrdən geri qaytarılan vəsaitləri qeyd olunur. Fikrimizcə, sair gəlirlər bölməsində yuxarıda sadalanan mənbələrin tam göstərilməsi məqsədə müvafiq olardı.

Fondun gəlirlərindən əsasən ölkə vətəndaşlarının pensiya və sosial təminat hüquqlarının təmin edilməsi məqsədi ilə istifadə edilir. (Cədvəl 2).

Cədvəldə əmək pensiyalarının ödənilməsi xərclərinin daha yüksək olmasını şərtləndirən amillər sırasında pensiyanın minimum məbləğinin artırılmasını, keçmiş dövrə görə pensiya ödənişlərinin hissə-hissə ödənilməsini, qanuna edilmiş dəyişikliyə əsasən 01.07.2017-ci il tarixindən sonra əlilliyə görə əvvəllər əmək pensiyası təyin edilmiş şəxslərə işlədikdə belə, pensiyanın tam ödənilməsini,

yaşa görə əmək pensiyası təyin edilmiş şəxslərə 01.07.2017-ci il tarixindən sonra 6 il və daha çox işlədikdə əmək pensiyalarının yenidən hesablanmasını və s. misal göstərmək olar.

**Cədvəl 2**

**2017-2022-ci illərdə DSMF xərclərinin istiqamətləri, mln. manat**

| | Xərc istiqamətləri | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| | Xərclər-cəmi | 3486.8 | 3757.7 | 3951.2 | 4711.1 | 4842.6 | 5251.6 |
| 1. | Əhaliyə ödənişlər, cəmi | 3383.8 | 3604.8 | 3843.2 | 4586.9 | 4717.0 | 5083.8 |
| 1.1 | Əmək pensiyaları -nın ödənişinə | 3288.7 | 3523.4 | 3747.5 | 4473.6 | 4586.9 | 4945.1 |
| 1.2 | MDSSH hesabına müavinətlərin ödənilməsi | 95.1 | 81.4 | 95.7 | 113.3 | 130.1 | 138.7 |
| 2. | Pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri | 23.9 | 19.9 | 21.4 | 16.6 | 18.7 | 20.1 |
| 3. | Sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirləri üzrə xərclər | 19,1 | 20.0 | 20.0 | 20.5 | 20.5 | 21.5 |
| 4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri | 34.4 | 35.4 | 49.5 | 68.1 | 67.7 | 89.3 |
| 5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilmə-si xərcləri, min man. | 0.06 | 0.06 | 0.06 | 0.06 | 0.06 | 0.05 |
| 6. | "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılma xərcləri, | 1.6 | 1.6 | 0.4 | 1.2 | 0.6 | 0.6 |
| 7 | Digər | 23.94 | 75.94 | 16.65 | 17.70 | 5.0 | 5.5 |

*Mənbə: cədvəl https://sai.gov.az/filter?type=rey saytından götürülmüş məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır*

Fikrimizcə, bu istiqamət üzrə xərcləri optimallaşdırmaq üçün keçmiş dövrə hesablanan pensiya məbləğinin hissə-hissə deyil birdəfəyə vətəndaşın hesabına köçürülməsini, əlillik təyinatı sahəsində şəffaflaşdırma işinin daha da sürətləndirilməsini, hüquq olmadan aparılan təyinatların qarşısının alınmasını və ümumiyyətlə pensiya təyinatının tamamilə avtomatlaşdırılmasını həyata keçirmək lazımdır.

Cədvəl 2-də Fondun aparatının və digər struktur bölmələrinin saxlanılması xərclərinin də artmasının şahidi oluruq. Bu istiqamətdə xərclərin artımının əsas səbəbi Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə DSMF bazasında publik hüquqi şəxsin yaradılması olmuşdur. Belə ki, bu fərmandan sonra 2020-ci ilin sonlarına yaxın Fondun strukturunda əsaslı dəyişikliklər edilmiş, əməkdaşlarının əmək haqqı dəfələrlə artmış və Fondun saxlanma xərcləri yüksəlmişdir. Bu istiqamətdə xərclərin optimallaşdırılması üçün fikrimizcə, bölgələrdə Fondun qəbul mərkəzləri yaradılmalı, ƏƏSMN tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) və ASAN xidmət Mərkəzlərinin xidmətlərindən daha geniş istifadə olunmalıdır. Bunun nəticəsində isə Fondun Regional Ərazi Filiallarının fəaliyyətinə ehtiyac qalmayacaq. Belə ki, həmin Filialların mütəxəssisləri yuxarıda qeyd etdiyimiz Fondun qəbul mərkəzlərində, DOST filiallarında və ASAN xidmət mərkəzlərində vətəndaşlara xidmət göstərəcək, onların təqdim etdiyi sənədləri onlayn rejimdə Fondun Mərkəzi Filiallarına göndərəcək. Bu isə öz növbəsində Fondun saxlanılması xərclərini azaltdığı kimi, eyni zamanda vətəndaş-məmur təmasını sıfıra endirməklə, bu sahədə şəffaflığın təmin olunmasına şərait yaradacaqdır.

DSMF-nun məcburi dövlət sosial sığorta haqları üzrə fəaliyyəti kommersiya fəaliyyətinin iqtisadi mahiyyətinə uyğun gəlmir və ona görə də bu sahə üzrə baş vermiş əməliyyatların uçotda mühasibat uçotunu MHBS üzrə aparan subyektlər üçün nəzərdə tutulmuş hesablar planı əsasında əks etdirilməsi mühasibat uçotu məntiqinə uyğun gəlmir. Bunları nəzərə alaraq, təklif edirik ki, DSMF-nin fəaliyyətinin mühasibat uçotunda əlverişli şəkildə əks etdirilməsi üçün o, şərti olaraq 2 yerə bölünsün: 1) qeyri-kommersiya fəaliyyəti, 2) kommersiya fəaliyyəti.

Kommersiya fəaliyyəti DSMF-nin ümumi fəaliyyəti içərisində ikinci dərəcəli yer tutur. Burada DSMF-nin büdcəsində toplanmış vəsaitlərin idarə edilməsi və kommersiya məqsədləri üçün istifadə edilməsi ilə əlaqədar olan təsərrüfat əməliyyatları yer alır. DSMF-nin kommersiya fəaliyyəti çoxsahəli və müxtəlif ola bilər. Belə fəaliyyət müxtəlif mənbələrdən gəlirlərin əldə edilməsi, bu tipli fəaliyyətin təşkil edilməsinə müxtəlif təyinatlı xərclərin çəkilməsi və son nəticədə müvafiq maliyyə nəticələrinin (mənfəətin və ya zərərin) meydana gəlməsi ilə müşayiət olunur.

DSMF-nin burada göstərilən iki qrup üzrə fəaliyyətinin mühasibat uçotunda düzgün əks etdirilməsinin təkmilləşdirilməsi imkanlarının araşdırılması məqsədi ilə aşağıda göstərilən 2 müxtəlif variantın nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik:

1) DSMF-nin fəaliyyətinin mühasibat uçotunda MHBS-ə uyğun olan hesablar planı üzrə əks etdirilməsi;

2) DSMF-nin fəaliyyətinin mühasibat uçotunda İS üçün MUBS-ə uyğun olan hesablar planı üzrə əks etdirilməsi.

Mühasibat uçotunun MHBS əsasında aparılması qaydalarında verilmiş hesablar planına diqqətlə nəzər yetirdikdə məlum olur ki, orada verilmiş mühasibat hesabları DSMF-nin gəlirlərinin mühasibat uçotunda ayrı-ayrı mənbələr üzrə əks etdirilməsini təmin etmir. Belə ki, bu hesablar planında gəlirlərin uçotu üçün nəzərdə tutulmuş hesablar yalnız kommersiya fəaliyyəti üçün uyğunlaşdırılmışdır. Hesablar planının "Gəlirlər" adlanan 6-cı bölməsində əsas əməliyyat gəlirlərinin, sair əməliyyat gəlirlərinin, fəaliyyətin yaranmasından yaranan gəlirlərin, maliyyə gəlirlərinin və fövqəladə gəlirlərin uçotunun aparılması üçün nəzərdə tutulmuş qruplar verilmişdir ki, bunların da hər birinin tərkibində müvafiq mənbələrdən daxil olan gəlirlərin tanınması üçün lazım olan sintetik hesablar vardır.

Hesablar planında gəlirlərin aparılması üçün nəzərdə tutulmuş əsas sintetik hesablara aid çoxsaylı subhesablar təyin edilmişdir ki, bunlar da bir qayda olaraq, mühasibat uçotu subyektinin kommersiya fəaliyyətinin uçotu üçün əlverişli hesab edilə bilər. Bizim fikrimizcə, burada verilmiş əsas sintetik hesablar və onların subhesabları DSMF-nin tədqiqat işinin bundan əvvəlki bölmələrində araşdırılmış gəlirlərinin mühasibat uçotunda ayrı-ayrı məbələr üzrə onların öz

iqtisadi mahiyyətinə uyğun şəkildə əks etdirilməsi üçün əlverişli hesab edilmir, çünki DSMF-nin nizamnaməsində göstərildiyi kimi, bu təşkilatın fəaliyyətində əsas yer qeyri-kommersiya fəaliyyətinə, köməkçi yer isə kommersiya fəaliyyətinə məxsusdur.

İctimai sektorun təşkilatları üçün hesablar planında gəlirlərin uçotunun təşkil edilməsi məqsədi ilə 2 qrup əsas sintetik hesablar mövcuddur. Bunlardan birincisi qeyri-birja əməliyyatlarından əldə edilən gəlirlərin, ikincisi isə birja əməliyyatlarından əldə edilən gəlirlərin uçotunun aparılması məqsədi ilə nəzərdə tutulmuşdur. Əgər nəzərə alsaq ki, qeyri-birja əməliyyatları qeyri-kommersiya fəaliyyətini, birja əməliyyatları isə kommersiya fəaliyyətini əhatə edən əməliyyatlardır, onda aydın olur ki, ictimai sektora aid olan təşkilatlarda onların əsas fəaliyyət istiqaməti olan qeyri-kommersiya əməliyyatlarından əldə edilən gəlirlərin uçotunun müvafiq hesablar planında verilmiş "602-Məcburi ödənişlər üzrə daxilolmalardan qeyri-birja gəlirləri" hesabında, həmçinin də "62-Qeyri-birja əməliyyatlarından gəlirlər" qrupuna aid olan digər hesablarda aparılması məqsədəuyğundur. Təşkilatın ikincidərəcəli fəaliyyət istiqaməti hesab edilən kommersiya əməliyyatlarından əldə edilən gəlirlərin uçotunun isə "61-Birja əməliyyatlarından gəlir" qrupuna aid olan "611-Satış" hesabında aparılması məqsədəuyğundur.

Qeyri-birja fəaliyyətinin mühüm tərkib hissəsi olan məcburi dövlət sosial sığorta haqlarının toplanması və kütləvi sosial sığorta ödənişlərinin həyata keçirilməsi üzrə DSMF və sığorta subyektlərinin fəaliyyətində aşağıda göstərilən təsərrüfat əməliyyatları kütləvi şəkildə və davamlı olaraq baş verir:

1) Sosial sığorta haqları ilə bağlı təsərrüfat subyektlərinin təqdim etdikləri hesabatlarda göstərilən vəsaitlər Fondun gəlirlərinə aid olduğu halda, müvafiq subyektin debitor borcu kimi qəbul edilir;

2) Sosial sığorta subyekti tərəfindən hesablanmış məcburi dövlət sosial sığorta haqlarının məbləğinin bir hissəsi həmin subyektə aid olan sığortaolunanların bəzi cari sığorta ödənişlərini maliyyələşdirilməsinə xərclənir və bu məbləğ DSMF-nin xərci kimi tanımaqla, müvafiq subyektin debitor borcunun azaldımasına aid edilir;

3) Sosial sığorta subyekti tərəfindən hesablanmış məcburi dövlət sosial sığorta haqlarının məbləğinin yerdə qalan hissəsi həmin subyekt tərəfindən DSMF-nin bank hesabına köçürülür;

4) DSMF ölkə üzrə kütləvi sosial sığorta ödənişlərini həyata keçirmək üçün özünün bank hesabından müvafiq vəsaitləri sığortaolunanların şəxsi kart hesablarına köçürür və bu məbləğlər də DSMF-nin xərci kimi tanınır.

Ümumiyyətlə ölkədə elektron informasiya sisteminin yüksək tətbiq olunduğu və xidmətlərinin böyük hissəsi avtomatlaşdırılmış sistem vasitəsi ilə həyata keçirilən qabaqcıl qurumlardan biri ƏƏSMN-i və onun tabeliyindəki qurumlardır. Xüsusi ilə bu istiqamətdə DSMF-ni də qeyd etmək yerinə düşər. Fondun bütün fəaliyyət istiqamətləri demək olar ki, elektronlaşdırlıb. Fikrimizcə, elektronlaşmanın sürətli tətbiq olunduğu qurumda nazirliyin və ya fondun daxili audit şöbələrinin bölgələrə ezam olunması həm vaxt itkisinə, həm də əlavə ezamiyyə xərclərinin hesablanmasına səbəb olur. Düşünürük ki, həmin qurumlar heç bir ezamiyyət olmadan, heç bir bölgəyə getmədən, fondun yerli şöbələrinin əməkdaşları ilə əyani ünsiyyət qurmadan onlayn qaydada elektron informasiya sisteminə daxil edilmiş sənədlər əsasında audit yoxlamalarını elektron formada təşkil etsinlər, əlavə sual yarandıqda, çatışmazlıq olduqda həmin şöbə ilə əlaqə saxlayıb çatışmazlıqların aradan qaldırılması istiqamətində tapşırıq və tövsiyyələrini versinlər. Bu fikir eyni zamanda qurumun saxlanma xərclərinə qənaət etdiyi kimi, həm də əsassız və artıq ödəmələrin dərhal qarşısının alınmasına şərait yaradacaqdır. Ümumiyyətlə, sosial sığorta sistemində elektron auditə keçidin təmin edilməsi ilə obyektivlik və şəffalığın artmasına, xərclərin optimallaşdırılmasına, kadr potensialının təkmilləşdirilməsinə, əsassız ödənişlərin qarşısının dərhal alınmasına və s. nail olunar.

Tədqiqat işinin üçüncü fəsli "**Dövlət Sosial Müdafiə Fondunda maliyyə resurslarının idarəedilməsi səmərəliliyinin yüksəldilməsi, uçotu və auditinin təkmilləşdirilməsi istiqamətləri**" adlanır və bu fəsildə əhalinin sosial müdafiəsində maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi yolları, büdcədənkənar dövlət fondlarının idarəetmə orqanlarında uçot və hesabatın təkmilləşdirilməsi istiqamətləri və dövlət idarəetmə sektorunda ma-

liyyə nəzarəti və daxili audit sisteminin təkmilləşdirilməsi istiqamətləri araşdırılır.

Əhalinin sosial müdafiəsində maliyyə resurslarından səmərəli istifadə edilməsi istiqamətlərindən biri özəl pensiya fondlarının yaradılmasıdır. Qeyri-dövlət pensiya fondlarının ölkənin maliyyə sistemindəki rolu özünü iqtisadiyyatın əsas makroiqtisadi göstəricilərinin (pul kütləsinin həcmi, infilyasiya səviyyəsi, investisyia fondlarının formalaşması və s.) tənzimlənməsində göstərir. Qeyri-dövlət pensiya fondları ilə vətəndaşın bu və ya digər formada əlaqəsinin onun dövlət tərəfindən təyin ediləcək pensiyası ilə heç bir əlaqəsi yoxdur. Bu xüsusiyyətinə görə bu sistemə bəzən vətəndaşın əlavə pensiya təminatçısı da deyilir. Digər xüsusiyyəti isə bu sistemin tamamilə könüllü olaraq vətəndaşların ödədiyi vəsaitlərdən formalaşmasıdır.

Bu sahədə bütün proseslər vətəndaşla qeyri-dövlət pensiya fondu arasında bağlanmış müqavilə ilə tənzimlənir. Müqavilədə əsasən, hər iki tərəfin vəzifə və öhdəlikləri, ödəniləcək məbləğ, həmin məbləğin vətəndaşa qaytarılması şərtləri və müddətləri və digər məsələlər əks olunur.

Ümumiyyətlə, ölkəmizdə bu günki əlverişli investisiya mühitində özəl pensiya fondlarının yaradılması və inkişafı həmçinin burada toplanan vəsaitlərdən səmərəli istifadə olunması olduqca zəruridir. Əlverişli investisiya mühiti dedikdə, həm azad rəqabətə əsaslanan bazar iqtisadiyyatının inkişafı, həm də sürətli yenidən qurma işlərinin gedişatı nəzərdə tutulur. Belə ki, 44 günlük müharibədən sonra Azərbaycan ordusu uzun illər erməni qəsbkarları tərəfindən işğal altında saxlanılan və vəhşicəsinə dağıdılan Azərbaycan ərazisinin böyük hissəsini düşmən tapdağından azad etmişdir. Məhz həmin ərazilərdə tikinti-yenidənqurma işlərinə, o cümlədən infrastruktur layihələrinə töhvə vermək məqsədilə özəl pensiya fondları yaranarsa, onların vəsaitlərindən investisiya şəklində istifadə etmək məqsədəuyğun olar.

Büdcədənkənar dövlət fondu olaraq DSMF- Publik hüquqi şəxsində mühasibatlıq sistemi nizamnaməsinin və qanunvericiliyin tələblərinə uyğun olaraq bir neçə dəfə əsaslı və köklü dəyişikliklərə məruz qalmışdır. Belə ki, 2017, 2018-ci illərdə Fondun mühasibatlıq sistemi Milli mühasibat uçotu standartlarına əsasən, 2019-2020-ci ilin

30 iyun tarixinə qədər (İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları) İSMUBS-a əsasən və 2020-ci ilin 01 iyul tarixindən isə (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) MHBS-a uyğun olaraq təşkil edilmişdir.

DSMF-də gəlir və xərclərin analitik uçotunun təşkil edilməsi və bunun əsasında idarəetmə uçotunun təkmilləşdirilməsi kimi gəlirlərin sosial sığorta subyektləri üzrə, xərclərin isə nomenklatura maddələri və iqtisadi təsnifat maddələri üzrə analitik uçotunun aparılması məqsədəuyğun hesab edilir. Bu halda gəlirlərin uçotunda hər bir sosial sığorta subyekti üçün, xərclərin uçotunda isə hər bir nomenklatura maddəsi və iqtisadi təsnifat maddəsi üzrə ayrıca analitik hesab açılacaqdır. Uçot işləmələri proseslərində həmin analitik hesablar üzrə formalaşdırılmış dövriyyə və qalıq məbləğləri DSMF orqanlarında məcburi dövlət sosial sığorta haqlarının toplanması və kütləvi sosial sığorta ödənişlərinin həyata keçirilməsi üzrə cari proseslərin idarəedilməsi üçün zəruri olan informasiyalar kimi istifadə ediləcəkdir.

Beləliklə, burada göstərilən sintetik və analitik uçot məsələlərinin DSMF orqanları üçün məcburi dövlət sosial sığorta haqlarının toplanması və kütləvi sosial sığorta ödənişlərinin həyata keçirilməsi üzrə əməliyyatların uçotunun yeni metodikası kimi qəbul edilməsini təklif edirik. Bununla yanaşı, aparılmış tədqiqatın nəticəsində publik hüquqi şəxs olaraq DSMF-də gəlir və xərclərin uçotunun Qanunda göstərildiyi kimi, MHBS əsasında yox, İS üçün MUBS əsasında aparılmasının məqsədəuyğun olduğunun müəyyən edildiyini nəzərə almaqla, Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin əlaqədar bəndlərində müvafiq dəyişikliyin edilməsini məqsədəuyğun hesab edirik[4].

Ölkəmizdə nəzarət sisteminin səmərəli qurulması və təşkil edilməsi Ulu Öndər H.Əliyevin adı ilə bağlıdır. Belə ki, Onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra bütün sahələrdə olduğu kimi iqtisadiyyat sahəsində də əsaslı dönüş və inkişaf dövrü başladı. Büdcə vəsaitlərindən səmərəli istifadə edilməsində, gəlir və xərclərin

---

[4] Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu // 29 iyun 2004-cü ildə qəbul edilmişdir (2021-ci il oktyabrın 29-da qəbul edilmiş əlavə və dəyişikliklərlə). -Bakı: Qanun, -2005.

uyğunlaşdırılmasında, yeni gəlir mənbələrinin formalaşdırılmasında, özəl sahibkarlığın inkişafında bir sözlə dövlət və özəl sektorun qarşılıqlı əlaqəsində sürətli inkişaf dövrü yarandı[5].

Müasir dövrdə dövlət maliyyəsinin, o cümlədən DSMF-nun maliyyə resurslarının səmərəli və məsuliyyətli idarəedilməsini müəyyən edən mühüm aspektlərə aiddir:

-maliyyə, büdcə - vergi sferasının şəffaflığı.

-maliyyə sisteminin dayanıqlığı.

-büdcə-maliyyə siyasətinin səmərəli (nəticəli) olması[6]. Bu resursların bölgüsünün, müəyyənləşdirilmiş məqsədlərə nail olmaq baxımından dövlət hakimiyyəti orqanlarının fəaliyyət səmərəliliyini, nəticələr üzərində məsuliyyəti təmin edən mexanizmləri, həmçinin gələcəkdə maliyyə vəsaitlərindən istifadənin səmərəliliyini yüksəltmək məqsədilə monitorinq, qiymətləndirmə və auditdən istifadə edilməsini nəzərdə tutur.

[5] Novruzov, V.T. Heydər Əliyevin iqtisadi siyasətində nəzarət amili // Heydər Əliyevin iqtisadi siyasətində nəzarətin yeri və rolu Elmi-praktik simpozium materialları,- Bakı, - 2013, s.16-22.

[6] Токун, Л.В. Риск-ориентированный подход в управления общественными финансами / Л.В.Токун, Е.И.Шаманина // Вестник Университета, -Москва: -2014. №12, -с.168-174.

# NƏTİCƏ

Dissertasiya işində sosial sığorta institutlarının nəzəri və instutsional əsasları, sosial müdafiə sisteminin modelləri, sosial sığorta gəlirlərinin uçotu və auditinin təşkilinin nəzəri metodoloji aspektləri, DSMF-nun gəlir və xərclərinin uçotunun cari vəziyyəti, dövlət sektorunda uçot və hesabatın təşkili xüsusiyyətləri və təkmilləşdirilməsi, sosial sığorta sistemində maliyyə nəzarəti və daxili auditin təşkili, sosial müdafiə sistemində maliyyə resurslarından səmərəli istifadə məsələləri araşdırılmış və aşağıdakı nəticə və tövsiyyələr formalaşdırılmışdır.

1. Sosial müdafiə sisteminin əsas elementi olan sosial risk kateqoriyasının mahiyyətinə olan yanaşmalar araşdırılmış, bu kateqoriyaya aid hadisələrdən mövcud müdafiə mexanizimləri tədqiq edilmiş, əsas əlamətləri müəyyənləşdirilmiş və sosial risk kateqoriyasına daxil olan hadisələrin təsir dairəsinin azaldılması üçün müvafiq tövsiyyələr hazırlanmışdır. Bunlardan işçilərə optimal iş şəraitinin yaradılmasını, yüksək əməkhaqqının verilməsini və s. qeyd etmək olar.

2. Sosial müdafiə sisteminin çox şaxəli olması və ölkələrdən asılı olaraq müxtəlif formalarda təşkil edilməsi dünyada bu istiqamətdə bir neçə iqtisadi modelin formalaşmasına zəmin yaratmışdır. Bu baxımdan tədqiqat işində həmin modellərdən bəziləri araşdırılmış, mənfi və müsbət cəhətləri qeyd edilmişdir. Eyni zamanda Azərbaycanda qarışıq sosial müdafiə modelinin tətbiq edildiyi müəyyənləşdirilmiş və ölkənin sosial müdafiə sistemində ayrılıqda digər iqtisadi modellərin göstəriciləri təhlil edilmişdir;

3. Sosial sığorta gəlirlərinin və xərclərinin struktur quruluşuna nəzər saldıqda son iki ildə artıq gəlirlərin xərcləri üstələməsinin şahidi oluruq. Bunun əsas səbəbi gəlirlərin formalaşmasının əsasını təşkil edən məcburi sosial sığorta haqlarının toplanmasının vergi xidmətinə verilməsidir. Bundan başqa xərclərin də optimallaşdırılması prosesi həyata keçirilir. Belə ki, əsassız və artıq ödəmələrin dayandırılması və dövlət büdcəsinə geri qaytarılmasının təmin edilməsi, qeyri-formal məşğulluqla kəskin mübarizə tədbirləri və s. buna misaldır. Lakin sadalanan müsbət irəliləyişlərlə yanaşı müəyyən çatışmazlıqlar da var. Belə ki, Fondun illik büdcəsinin qanun layihəsinin daha ətraflı

təqdim olunması, gəlirlər bölməsində köhnə dövrdən qalan debitor borclarının uçotunun ayrıca aparılması, xərclər bölməsində ödənilən pensiyaların növlər üzrə göstərilməsi, keçmiş dövrə görə ödənilən hissənin ayrıca göstərilməsi və s. bu kimi elementlərin nəzərə alınması, fikrimizcə, yaxşı olardı;

4. DSMF-də gəlir və xərclərin uçotunun müasir vəziyyətinin araşdırılması nəticəsində müəyyən edildi ki, müasir dövrdə burada gəlir və xərclərin uçotunun MHBS əsasında qəbul edilmiş mühasibat uçotu qaydaları üzrə aparılması gəlir və xərclərin formalaşması üzrə təsərrüfat əməliyyatlarının iqtisadi mahiyyətinə uyğun deyildir. Tədqiqatdan irəli gələn müddəaların məzmununa müvafiq olaraq, gəlir və xərclərin uçotunun İS üçün MUBS tələblərinə uyğun təkmilləşdirilməsi metodikası işlənib hazırlanmış və buna uyğun müvafiq mühasibat müxabirləşmələri təklif edilmişdir. Belə ki, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun publik hüquqi şəxslərdə mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsi qaydalarını tənzimləyən 12-1-ci maddəsində müvafiq dəyişikliyin edilməsi təklif edilir.

5. Sosial sığorta sistemində səmərəli idarəetmə sisteminin qurulması olduqca mühüm amildir. Belə ki, səmərəli idarəetmə sistemi vasitəsilə yalnız xərclərin maliyyələşdirilməsini deyil, eyni zamanda kənarlaşmaların da dərhal müəyyən edilməsi mümkün olacaqdır. Bu istiqamətdə daxili audit bölməsinin üzərinə ağır yük düşür. Fikrimizcə, ənənəvi audit yoxlamalarının deyil, elektron auditə keçid prosesinin təmin edilməsi çevik nəzarət mexanizminin tətbiqinə şərait yaradar. Başqa sözlə desək, elektron auditin tətbiqi ilə ezamiyyə xərclərinə qənaət edildiyi kimi, əlavə vaxt itirmə, yerli şöbələrin işinə müəyyən qədər maneçilik yaratma kimi hallarında qarşısı alınmış olar. Ümumiyyətlə, sosial sığorta sistemində elektron auditə keçidin təmin edilməsi ilə obyektivlik və şəffalığın artması, xərclərin optimallaşdırılması və s. nəticələr əldə olunar.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Hüseynov N.H. "Risk yönümlü idarəetmə sistemində daxili audit və nəzarətin inkişafı" AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, №1, səh. 121-126. Bakı 2020;

2. Hüseynov N.H. "Sosial sığorta daxilolmalarının uçotu və onların artırılması istiqamətləri" Bakı Biznes Universiteti, Audit jurnalı, №1, səh. 15-25. Bakı 2020;

3. Hüseynov N.H. "Müasir Azərbaycanda əhalinin sosial müdafiəsinin bəzi məsələləri" Dövlət Statistika Komitəsi, Statistika Xəbərləri, №3, səh. 33-40, Bakı 2020;

4. Hüseynov N.H. "Azərbaycanın sosial sığorta sistemində maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri" Azərbaycan Memarlıq və İnşaat Universiteti, Tikintinin iqtisadiyyatı və menecment, №3(12) səh. 132-140, Bakı 2020;

5. Hüseynov N.H. "Sosial sığorta institutunun formalaşdırılmasının nəzəri və institusional əsasları" Geostrategiya jurnalı, №2(62), səh. 32-36, Bakı 2021;

6. Hüseynov N.H. "Büdcədənkənar dövlət fondlarının idarəetmə orqanlarında uçot və hesabatın təkmilləşdirilməsi istiqamətləri" Dövlət Statistika Komitəsi, Statistika Xəbərləri, №3, səh. 67-73, Bakı 2021;

7. Hüseynov N.H. "Sosial sığorta gəlirlərinin uçotunun metodoloji aspektləri" AMEA-nın İqtisadiyyat İnstitutu, İqtisadi Artım və İctimai Rifah jurnalı, №3, səh. 39-47, Bakı 2021;

8. Hüseynov N.H. "Daxili auditin idarəetmə sistemində təşkili xüsusiyyətləri" AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, №1, səh. 121-126. Bakı 2021;

9. Hüseynov N.H. "Azərbaycanda əhalinin sosial müdafiə sisteminin idarəedilməsi səmərəliliyinin yüksəldilməsi" Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar elmi tədqiqat İnstitutunun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusu, XXI buraxılış, səh. 94-105, Bakı 2021,

10. Гусейнов Н.Г. «Пути совершенствования вопросов учета и управления системы социальной защиты населения в Азербайджане», "Научное обозрение: теория и практика" Научный

журнал по экономике ISSN 2226–0226 (Print) Том 10. Выпуск 11, Саратов-2020, стр. (2859-2869);

11. Гусейнов Н.Г. «Структурный анализ доходов и расходов Государственного фонда социальной защиты Азербайджанской Республики», Экономика и управление: проблемы, решения №9, том 1, Москва 2020, стр. (155-160);

12. Hüseynov N.H. “Risk yönümlü yanaşma əsasında DSMF-nin maliyyə resurslarının idarəedilməsi” Ümummilli lider Heydər əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Azərbaycanda ali təhsilin beynəlmiləlləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri” mövzusunda beynəlxalq-elmi praktiki konfrans, Bakı Biznes Universiteti, səh. 504-509, Bakı 2019;

13. Hüseynov N.H. “Sığorta resursları və onların artırılması istiqamətləri” “Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah” mövzusunda beynəlxalq elmi praktiki konfrans, ƏƏSMN, səh. 404, Bakı 2018;

14. Гусейнов Н.Г. “Актуальные вопросы усиления финансового контроля и системы внутреннего аудита в государственном секторе управления» Общество, культура, человек в цифровую эпоху. Сборник научных трудов Международной научно-практической конференции, Стр. (28-37) Санкт-петербург 2021;



Dissertasiyanın müdafiəsi “06” sentyabr 2024-cü il tarixdə saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “27” iyun 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.06.2024
Kağızın formatı: 60x84 1/16.
Sifariş 20/04. Həcmi 1 ç.v. (40827 işarə)
Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*